**“Qida təhlükəsizliyi problemlərinə dair Multimonitorinq Planı” çərçivəsində AQTA əməkdaşları tərəfindən aparılan yoxlamalar**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ölkədə qida təhlükəsizliyi ilə bağlı mövcud problemlərin və ya təhlükələrin, baş verən zəhərlənmə hallarının və daxil olan istehlakçı şikayətlərinin təhlili nəticəsində “Qida təhlükəsizliyi problemlərinə dair Multimonitorinq Planı” hazırlanıb.

“Qida təhlükəsizliyi problemlərinə dair Multimonitorinq Planı” çərçivəsində Agentlik əməkdaşları tərəfindən aparılan yoxlamalar zamanı ticarət şəbəkələrində satışı həyata keçirilən süd məhsullarından 114 nümunə götürülərək müayinə məqsədilə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim edilib. Eyni zamanda götürülmüş nümunələrin etiket məlumatlarında bir sıra pozuntular aşkarlanıb. Belə ki, kəsmik və xama məhsullarının etiket məlumatlarında 2 halda tərkibində bitki yağından istifadə olunduğu qeyd olunmasa da, laborator müayinələr nəticəsində həmin məhsullarda fitosterinlər aşkarlanıb. Həmçinin digər məhsulların tərkibində fitosterinlər aşkarlandığı halda, məhsulun etiket məlumatlarında bitki yağı deyil, “süd yağı əvəzedicisi” ifadəsindən istifadə edilib. Bununla əlaqədar olaraq, həmin müəssisələrin rəhbərlərinə məhsulların etiket məlumatlarının “Qida təhlükəsizliyi haqqında” və “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanunların tələblərinə uyğunlaşdırılması barədə məktub göndərilib.

Aşkar olunmuş faktlarla bağlı araşdırmalar davam etdirilir və qanunvericiliyə uyğun müvafiq tədbirlər həyata keçirilir.

Emalında bitki tərkibli yağlardan istifadə edilən süd məhsullarının adları aşağıdakılardır:

| № | Sahibkarlıq subyektinin adı | Məhsulun növü | Əmtəə nişanı |
|---|---|---|---|
| 1 | "Uzun Ömür-Süd məhsulları" MMC | 18% yağlılıqda kəsmik məhsulu 1/200qr | "Uzun ömür" |
| | | 18% yağlılıqda ərikli kəsmik məhsulu 1/400qr | |
| | | 10% yağlılıqda xama məhsulu | |

| | | | |
|---|---|---|---|
| 2 | "Səhliyalı" kiçik müəssisəsi | 15%  yağlılıqda xama məhsulu 1/200qr | "1000 Bərəkət Dadlı nemət" |
| 3 | "Şamaxı Dairy Farm" MMC | 25% yağlılıqda xama məhsulu | "Yurdum" |
| 4 | "Bakı süd Co" MMC | 18% yağlılıqda qayısılı kəsmik 1/200qr | "RB" |
| 5 | "Fiesta Group" MMC | xama məhsulu 1/180qr | "Nehrə" |
| 6 | F/ş Selman İbrahim | 18% yağlılıqda şokoladlı kəsmik  məhsulu 1/400qr | "Selman" |
| 7 | F/ş Bağırov Saxladər Sabir oğlu | xama | "Slavyanka" |
| 8 | F/ş Hüseynov Ramiz Məcnun oğlu | 10% yağlılıqda xama 1/180qr | "Bizim era" |
| 9 | "Agro Milk" MMC | Holland pendiri 1/250qr | "Baku cheese" |
| 10 | "Master Milk" MMC | 40% yağlılıqda "Hausfrau" holland pendiri məhsulu 1/250qr | "AER" |